**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

***Əlyazması hüququnda***

**İLHAM QNYAZ oğlu KƏRİMLİ**

# RUSİYANIN CƏNUBİ QAFQAZ SİYASƏTİ VƏ AZƏRBAYCAN-GÜRCÜSTAN MÜNASİBƏTLƏRİ
**(XVIII əsrin sonu - XIX əsrin əvvəlləri)**

5503.02 – «Vətən tarixi»

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2017**

***Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix İnstitutunun "Qafqazi tarixi" şöbəsində yerinə yetirilmişdir***

**Elmi rəhbər:**
*Tarix üzrə elmlər doktoru* *İ.S. Bağırova*

**Rəsmi opponentlər:**
*Tarix üzrə elmlər doktoru* *S.İ.Əliyeva*
*Tarix üzrə fəlsəfə doktoru* *E.K.Süleymanova*

**Aparıcı təşkilat:** **Bakı Dövlət Universitetinin "Azərbaycan tarixi" (təbiət fakültələri üzrə) kafedrası**

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5503.02 – "Vətən tarixi", 5502.01 – "Ümumi tarix", 5507.01 – "Beynəlxalq münasibətlər tarixi" və 5509.01– "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının "____" ________ 2017-ci il tarixli iclasında saat ____-da keçiriləcəkdir.

Ünvan: Az-1143, Bakı şəhəri, H.Cavid prospekti 115.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakı-xanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat " ____ "_________ 2017-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi:
tarix üzrə fəlsəfə doktoru: **C.Ə. Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra milli tariximizin müxtəlif problemlərinin araşdırılması üçün geniş imkanlar açılmışdır. Vətən tarixinin ayrı-ayrı dövr və problemlərinin yeni elmi yanaşma və konsepsiyalar əsasında tədqiqinə böyük ehtiyac vardır. Azərbaycan tarixinin XVIII əsrin II yarısı – XIX əsrin əvvəlləri dövrü siyasi, geosiyasi və strateji baxımdan milli tarixşünaslığımızda çox mühüm mərhələ hesab olunur. Ona görə də müasir dövrdə Cənubi Qafqaz regionunda yaranmış dövlətlərarası münasibətlər baxımından belə bir problemin tədqiqi xüsusi siyasi əhəmiyyət kəsb edir.

Azərbaycanlılar və gürcülər Cənubi Qafqazın avtoxton və min illərlə davam etmiş dövlətçilik ənənələrinə malik olan xalqlarıdır. Bu xalqların münasibətləri çoxəsrlik zəngin tarixi özülə söykənir. Azərbaycan-Gürcüstan münasibətləri tarixi keçmişin müxtəlif mərhələlərində yadelli istilaçılara qarşı mübarizədə iki xalqın yaxın ülfətini, dost həmrəyliyini dəfələrlə görmüş, keşməkeşli dövrlərin ən ağır sınağından keçmişdir. Bu münasibətlərin tarixi zaman kontekstində dinamikasının öyrənilməsi, onların məzmununu müəyyənləşdirən çeşidli amillərin araşdırılması bu baxımdan elmi əhəmiyyət kəsb edir.

Xalqlarımızın münasibətləri tarixində XVIII əsrin II yarısı – XIX əsrin əvvəlləri olduqca maraqlı, hadisələrlə zəngin, bütün regionun sonrakı taleyini köklü surətdə müəyyənləşdirmiş proseslərin yaşandığı mərhələni təmsil edir. Nadir şah Əfşarın 1747-ci ildə qətlindən sonra siyasi qarışıqlıq və nizamsızlıq dönəminin qədəm basdığı bir şəraitdə Azərbaycan xanlıqlarının gürcü dövlət qurumları ilə münasibətləri kifayət qədər mürəkkəb səciyyəyə malik olmuşdur. Bu münasibətlər çərçivəsində müvəqqəti ittifaqlar da yaranmış, müxtəlif dövrlərdə hərbi qarşıdurmalar baş vermiş, ixtilaf və münaqişələr də meydana çıxmışdı. Bu zaman böyük güclərin, ilk növbədə də Rusiya imperiyasının Cənubi Qafqazda hərbi-siyasi fəallığı həmin münasibətlərin məzmununa və inkişaf vektoruna birbaşa təsir göstərmişdir.

Bəhs etdiyimiz zaman kəsiyində Azərbaycan-Gürcüstan münasibətlərinin kompleks tədqiqi Azərbaycan milli tarixşünaslığında bu mövzu ilə bağlı mövcud boşluğu doldurmaqla yanaşı, digər elmi vəzifələrin də həllini nəzərdə tutur. İlk növbədə, belə bir tədqiqat hər iki ölkənin siyasi tarixinin az öyrənilmiş səhifələrinə aydınlıq gətirməyə, onların daxili siyasi həyatının bu münasibətlərin ümumi dinamikasından asılılığını aşkara

çıxarmağa imkan verir. İkincisi, Cənubi Qafqazın o dövrdəki geosiyasətinin daha dolğun mənzərəsini yaratmağa, çar Rusiyanın Cənubi Qafqaz siyasətinin proseslərə təsir gücünü və imkanlarını müəyyənləşdirməyə imkan verir. Üçüncüsü, Azərbaycan xalqının tarixi ərazilərinin parçalanmasının ilkin zəminini və ona yardım edən səbəbləri aydınlaşdırmağa şərait yaradır. Dördüncüsü, sözügedən dövrün Azərbaycan-Gürcüstan münasibətlərinin araşdırılması bəzi gürcü dairələrinin indi də irəli sürdükləri əsasız ərazi iddialarının tarixi köklərini üzə çıxarmağa imkan verir.

Tədqiqat mövzusunun həm siyasi, həm də elmi aktuallığını əsaslandırarkən, görkəmli Azərbaycan tarixçisi, AMEA-nın müxbir üzvü Y.M.Mahmudovun aşağıdakı tezisi bizim üçün konseptual istiqamət səciyyəsi kəsb edir: "Beləliklə, çar Rusiyasının Cənubi Qafqazda qəddar müstəmləkəçilik siyasətinin başlıca hədəfi regionun türk-müsəlman əhalisi və Azərbaycan oldu. Çar müstəmləkəçilərinin əlaltısı olan erməni-qriqorian kilsəsi bu qanlı siyasətin həyata keçirilməsində xüsusi canfəşanlıq göstərirdi. Rusiya imperiyasının şirnikləndirici "xristian həmrəyliyi" siyasəti Gürcüstanın da bəzi hərbi-siyasi dairələrini özünə cəlb etdi. Onlar da çar Rusiyası -Qacarlar İranı və çar Rusiyası - Osmanlı imperiyası müharibələrindən öz ərazilərini genişləndirmək üçün istifadə etmək xəttini seçdilər və bu məqsədlə işğalçılara yaxından kömək etdilər. Tarixi fakt budur ki, Rusiya imperiyasının Cənubi Qafqazı işğal etməsində rus ordusunda xidmət edən erməni və gürcü əsilli generallar yaxından iştirak etdilər. Daha doğrusu, Rusiya imperiyası Cənubi Qafqazın işğalında və öz müstəmləkəçilik planlarının həyata keçirilməsində yerli xristian amilindən məharətlə istifadə etdi"[1].

Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev 1997-ci il yanvarın 31-də Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə görüşündə demişdir: "Belə hesab edirəm ki, indi akademiyanın qarşısında duran vəzifələrdən biri də Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yazılmasıdır"[2]. Bu baxımdan təqdim olunan dissertasiya bu istiqamətdə atılmış mühüm addımnlardan biridir.

---

[1] Mahmudov Y.M. Azərbaycan-Gürcüstan münasibətlərinə dair qiymətli tədqiqat əsəri. Ş. Rəhmanzadənin "Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri (Azərbaycanın şimal-qərb bölgəsinin materialları əsasında: 1917–1930-cu illərin əvvəlləri)" əsərinə Ön söz // Rəhmanzadə Ş. "Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri (Azərbaycanın şimal-qərb bölgəsinin materialları əsasında: 1917–1930-cu illərin əvvəlləri). Bakı: Aspoliqraf, 2008, s.6-7.

[2] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. VIII cild. Bakı, 1998, səh. 369.

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiya xronoloji baxımdan XVIII əsrin son rübündən, 1813-cü ildə İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı ilə nəticələnmiş Gülüstan sülhünə kimi olan dövrü əhatə edir. Tədqiqat zamanı problemə giriş məqsədilə bəzən xronoloji çərçivədən kənara çıxılaraq Nadir şah Əfşarın öldürülməsindən sonra Cənubi Qafqazda yaranmış yeni siyasi şəraitdə xanlıqların meydana gəlməsindən də bəhs olunub. Tədqiqat işində Cənubi Qafqazın XVIII əsrin ikinci yarısında, işğal ərəfəsi və işğalın gedişindəki hərbi-siyasi durumunun işıqlandırılması zərurətindən bəzən müəyyən edilmiş bu xronoloji çərçivədən kənara çıxılmışdır.

**Mövzunun öyrənilmə səviyyəsi.** Problemin öyrənilmə səviyyəsindən bəhs edərkən qeyd etmək lazımdır ki, tədqiqata cəlb olunmuş əsərləri Rusiyada 1917-ci il Oktyabr çevrilişinə qədərki, sovet dövrü Azərbaycan, gürcü, rus və müasir dövr Azərbaycan tarixşünaslığına dair əsərlər üzrə təsnif etmək mümkündür. Bununla bərabər, dissertasiya üzərində işləyərkən bu problemlə bağlı azacıq da olsa məlumat verən mənbə və tarixi ədəbiyyatdan yararlanmağa çalışmışıq.

Bu problemlə bağlı ilk əsərlər hələ XIX əsrdə meydana gəlmişdir. 1917-ci il Oktyabr çevrilişinə qədərki rus tarixşünaslığında S.Esadze, İ.Şopen, A.Natroyeva, O.Konstantinov, İ.Cavaxov, N.Dubrovin, P.Butkov, A.Qizetti, S.Bronevskinin əsərlərini qeyd etmək olar[1]. Bu müəlliflərdən A.Qizettinin əsərindən mövcud arxiv sənədləri əsasında Qafqazın işğalı

---

[1] Эсадзе С. Историческая записка об управлении Кавказом. Т.1, Тифлис,1907; Шопен И. Исторический памятник состоянии Армянской области в эпоху ее присоединении к Российской империи. Спб. 1852; Натроева А. Ираклий II, царь грузинский. Тифлись, типография Е.Ив.Хеладзе, 1898; Константинов О.И. Джаро-белоканцы до XIX столетии. Сборник газеты «Кавказ» 1846 г., Тифлис, Типография Канцельярии Наместника Кавказа, 1847. №2-3, стр. 376-401; Джавахов И. Политические и социальные движение в Грузии в XVIII в. Спб., книгоиздательство «Сакартвело», 1906; Дубровин Н.Ф. Георгий XIII последний цар Грузии и присоединение ея к России. СПб, типография Департамента уделов, 1867; Дубровин Н.Ф. Закавказъе от 1803-1806 года. СПб, типография Департамента уделов, 1866; Дубровин Н.Ф. История войн и владычества русских на Кавказе. В 6-ти томах, т. II. Спб. 1886; Дубровин Н.Ф. История войн и владычества русских на Кавказе. В 6-ти томах. т.4, Спб., 1886; Дубровин Н.Ф. История войн и владычества русских на Кавказе. В 6-ти томах. т. VI. Спб.,Склад издания у В.А.Березовского, 1888; Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803. В 3-х частях. ч.I, СПб. Типография императорской Академии Наук, 1869; Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803. ч.II, СПб. Типография императорской Академии Наук, 1869; Бутков П.Г. Материал для новой истории Кавказа с 1722 по 1803. ч.III, СПб. Типография императорской Академии Наук, 1869; Гизетти А.Л. Сборник сведений о потерях Кавказских войск во время войн Кавказско- горской, персидских, турецких и в Закаспийском крае, 1801-1885 гг., Тифлис, изд-тво военно-исторического отдела при штабе Кавказского военного округа, 1901; Броневский С.Б. Новейшие географические и исторические известия о Кавказе. ч. I, Москва,1823.

zamanı ayrı-ayrı döyüşlərdə rusların verdikləri itkilər barədə statistik məlumatlar, Şopenin əsərindən İrəvan bölgəsinin daxili həyatının müxtəlif sahələri, böyük dövlətçilik mövqeyindən çıxış edən hərb tarixçisi N.Dubrovin və P.Q.Butkovun bilavasitə işğal prosesinə həsr olunmuş əsərlərindən Rusiyanın Cənubi Qafqazın ayrı-ayrı hakimlikləri ilə siyasi əlaqələri, A.Natroyevanın II İrakliyə həsr olunmuş əsərindən XVIII əsrin ikinci yarısında Azərbaycan-Gürcüstan əlaqələrinə dair zəngin faktiki material əldə olunmuşdur. Tənqidi yanaşılma tələb edən həmin əsərlərin çar Rusiyasının Qafqaz siyasətinə apologetika ruhunda yazılmasına, bununla əlaqədar hadisələrin təfsirində ciddi qüsurlar ehtiva etməsinə baxmayaraq, onlarda bizi maraqlandıran problemlə bağlı çox zəngin məlumatlar var.

Sovet dövrü tarixşünaslığının nümayəndələrindən H.V.Abdullayevin, H.M.İbrahimbəylinin, V.N.Leviatovun və C.M.Mustafayevin əsərlərində[1] Azərbaycanın XVIII – XIX əsrin əvvəlləri tarixinin çeşidli məsələləri araşdırılmışdır. Sözügedən müəlliflərdən H.Abdullayevin və V.Leviatovun XVIII əsr Azərbaycan tarixinə həsr olunmuş sanballı əsərləri zəngin arxiv sənədlərinə əsaslanan faktiki materialla zəngindir. H.M.İbrahimbəylinin XIX əsrin ilk sülsündə Azərbaycan-Rusiya münasibətlərindən bəhs edən əsəri hadisələrə yanaşmada mövcud sovet ideologiyasının təsirindən kənara çıxa bilməsə də, çar Rusiyası tərəfindən Azərbaycanın işğalı prosesinə dair zəngin faktiki materiallar ehtiva etməsi və hadisələri daha geniş kontekstdə nəzərdən keçirməsi səbəbi ilə böyük elmi dəyər daşımaqdadır. C.Mustafayevin əsərindən isə Şimali Azərbaycan xanlıqlarının XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Rusiya ilə münasibətlərinə dair məlumatlardan yararlanmışıq.

Birtərəfli, bəzən də hadisələrin təhrif olunması ilə seçilən bu dövr gürcü tarixşünaslığı tərəfindən kifayət qədər geniş işlənilmişdir. Bu əsərlərdə XVIII əsrin ikinci yarısında Gürcüstanın siyasi tarixinin, o cümlədən gürcü çarlığının xarici əlaqələrinin bəzi məsələlərinə qeyri-obyektiv yanaşma müşahidə olunur. Gürcü müəlliflərindən Q.Kikodzenin II İrakliyə, Q.Payçadzenin Georgiyevsk traktatına həsr olunmuş əsərləri bu mənada xüsusilə seçilirlər[2]. Həmin əsərlərdə zəmanəsinin "nadir"

---

[1] Абдуллаев Г.В. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией. Баку, изд-тво АН Азерб ССР, 1965; Абдуллаев Г.Б. Из истории Северо-восточного Азербайджана в 60-80-х гг. XVIII в. Баку, Изд-во Акад Наук Азерб ССР, 1958; Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX века (из военно-политической истории). Москва, «Наука», 1969; Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII веке. Баку, изд-тво АН Азерб ССР, 1948; Мустафаев Дж.М. Северные ханства Азербайджана и Россия (конец XVIII-начало XIX в.). Баку, Елм, 1989.

[2] Кикодзе Г. Ираклий второй. Перевод с грузинского А.Зардиашвили. Тбилиси, изд. «Заря Востока», 1948; Пайчадзе Г.Г. Георгиевский трактат. Тбилиси, изд-тво, «Мецниереба», 1983.

şəxsiyyəti kimi təqdim olunan II İraklinin Gəncə və İrəvan xanlıqları üzərində az qala daimi hakimiyyətinin mövcud olduğu iddia olunur. Bu baxımdan sovet dövrü gürcü tarixşünaslığına aid əsərlərin bir çoxu tənqidi yanaşma tələb edir.

Nəzərdən keçirdiyimiz dövrün Azərbaycan-Gürcüstan münasibətləri XX əsrin 80-ci illərindən etibarən gürcü tarixşünaslığında ayrıca tədqiqat istiqamətinə çevrilir. Gürcü tarixçisi Q.V.Maçaradzenin XVIII əsrin ikinci yarısında Azərbaycan xanlıqlarının Kartli-Kaxetiya çarlığı ilə siyasi əlaqələrinə həsr olunmuş tədqiqatı gürcü tarixşünaslığında bu sahədə ilk addım kimi dəyərləndirilə bilər[1]. Ümumən təqdirəlayiq hadisə olan bu əsər də təəssüflər olsun ki, gürcü tarixşünaslığına xas olan qeyri-obyektivlikdən xali deyildir. Sözügedən əsərdə II İraklinin Azərbaycan xanlıqlarına, qədim Azərbaycan torpaqları olan Qazax, Borçalı, İrəvan bölgələrinə və Car-Balakən camaatlıqlarının ərazilərinə münasibətdə işğalçı mövqeyi Kartli-Kaxetiya hakiminin guya ki, "qədim gürcü torpaqları"nı birləşdirmək uğrunda mübarizəsi kimi təqdim olunur.

Tədqiq olunan problemlə bağlı sovet dövrü rus tarixşünaslığının nümayəndələrindən O.P.Markovanı qeyd etmək lazımdır[2]. Onun 1812-ci il Kaxetiya üsyanı və XVIII əsrdə Rusiya, Cənubi Qafqaz və beynəlxalq münasibətlərə həsr olunmuş fundamental əsərləri həm özünəməxsus müəllif təfsiri, həm də faktiki materialın zənginliyi ilə seçilir.

Mərhum Şəfiqə xanım Həmidovanın XVIII əsrin ikinci yarısında Azərbaycan-Gürcüstan münasibətlərinə həsr olunmuş tədqiqat əsəri[3] sovet dövrü Azərbaycan tarixşünaslığında bilavasitə bu problemə həsr olunmuş ilk və yeganə əsərdir. Monoqrafiyada bəhs olunan dövrdə Kartli-Kaxetiya çarlığının ayrı-ayrı Azərbaycan xanlıqları ilə siyasi, iqtisadi və mədəni əlaqələri ayrılıqda nəzərdən keçirilmişdir. Zəngin mənbə-ədəbiyyat bazasına malik olan həmin əsərdən əldə etdiyimiz məlumatlar tədqiqatımızı xeyli zənginləşdirmişdir.

Yeni dövr Azərbaycan tarixinin görkəmli tədqiqatçısı, AMEA-nın müxbir üzvü, mərhum Mahmud İsmayılovun Şəki tarixinə dair əsərində[4]

---

[1] Мачарадзе Г.В. Политические отношения Картли-Кахетинского царства с Азербайджанскими ханствами во второй половины XVIII века. Диссертация на соискание ученой степени кандидата исторических наук. Тбилиси, 1984.

[2] Маркова О.П. Восстание в Кахетии 1812 г. Москва, изд-тво Акад. Наук СССР, 1951; Маркова О.П. Россия, Закавказье и международные отношения в XVIII веке. Москва, изд-тво, «Наука», 1966.

[3] Həmidova Ş.P. XVIII əsrin ikinci yarısında Azərbaycan-Gürcüstan münasibətləri tarixindən. Bakı, Elm, 1985.

[4] İsmayilov M.Ə. Şəki (tarixi oçerk). Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1982.

Hacı Çələbi xan tərəfindən car-balakənlilərlə ittifaqda Kartli-Kaxetiya çarlığının Azərbaycan ərazilərinə olan yürüşlərinin qarşısının alınması, eləcə də sonrakı Şəki hakimlərinin bu istiqamətdəki fəaliyyətlərinə dair məlumatlar təhlil edilərək, tədqiqata cəlb olunmuşdur.

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunda AMEA-nın müxbir üzvü Y.M.Mahmudovun təşəbbüsü və rəhbərliyi altında Azərbaycanın itirilmiş torpaqlarının tarixinin tədqiqi istiqamətində görülmüş əzəmətli işin nəticəsi olaraq işıq üzü görmüş "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" adlı kollektiv fundamental əsər[1] bu istiqamətdə görülmüş çoxillik gərgin əməyin bəhrəsi kimi qiymətləndirilməlidir. Bu kitabda İrəvan xanlığının əhalisi, ərazisi, sosial-iqtisadi həyatı, xanlığın xarici siyasəti, onun ərazisinin çar Rusiyası tərəfindən işğal olunması, Qacarlar İranı və Osmanlı imperiyasından ermənilərin bu bölgəyə köçürülməsi kimi məsələlər ətraflı işıqlandırılmışdır. Təbii ki, bu zaman İrəvan xanlığının gürcü çarlığı ilə münasibətlərinə də toxunulmuşdur.

Son illərdə sözügedən problematika üzrə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu "Qafqaz tarixi" şöbəsinin əməkdaşları tərəfindən hazırlanmış "Azərbaycan-Gürcüstan münasibətləri tarixi (XVIII əsr – XXI əsrin əvvəlləri)" adlı kollektiv monoqrafiya[2] tarixşünaslığımıza qiymətli töhfə sayılmalıdır.

Vətən tarixşünaslığında bu problemə həsr olunmuş əsərlərdən danışarkən Azərbaycanın xanlıqlar dövrü tarixinin görkəmli tədqiqatçısı t.ü.e.d., professor Tofiq Mustafazadənin əməyini xüsusilə qeyd etmək lazımdır[3]. Onun Vətənimizin XVIII-XIX əsrlər tarixinə həsr olunmuş monoqrafiyalarında bu dövrdə Azərbaycan-Rusiya və Osmanlı-Azərbaycan münasibətləri tədqiq olunur. Müəllif zəngin mənbə və ədəbiyyatı tədqiqata cəlb etməklə, Azərbaycanın bəhs olunan dövlətlərlə olan qarşılıqlı əlaqələrini dərindən araşdırmışdır. Təqdim olunan dissertasiya işində bu əsərlərdən yeri gəldikcə yaralanmışıq.

Müasir dövr milli tarixşünaslıqda Azərbaycan-Gürcüstan münasibətləri, çar Rusiyasının Cənubi Qafqaz siyasəti, bu bölgənin çarizm tərəfindən işğal olunması kimi problemlərə həsr olunmuş əsərlərdən

---

[1] İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, "Azərbaycan" nəşriyyatı, 2010.

[2] Azərbaycan-Gürcüstan münasibətləri tarixi (XVIII əsr-XXI əsrin əvvəlləri). Bakı, "Şərq-qərb" nəşriyyat evi, 2013.

[3] Mustafazadə T.T. Azərbaycan-Rusiya münasibətləri. Bakı, "Şərq-qərb" nəşriyyat evi, 2013; Mustafazadə T.T. Azərbaycan xanlıqlarının qısa tarixi. Bakı, 2011; Mustafazadə T.T. Quba xanlığı. Bakı, Elm, 2005.

M.Süleymanovun "Gülüstan müqaviləsi", F.Əliyev və M.Əliyevin "Naxçıvan xanlığı (1747-1828)", F.Əliyev və U.Həsənovun "İrəvan xanlığı", T.Mustafazadənin "XVIII yüzillik - XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri", G.Nəcəflinin "Azərbaycan XVIII-XIX əsrlərdə", E.Qarayevin "İrəvan xanlığı. (1747-1828)", V.Umudlunun "Şimali Azərbaycanın car Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828)", E.Paşayevanın "1801-1830-cu illərdə Rusiya, Türkiyə və İran münasibətlərində Azərbaycan problemi"[1] və başqa monoqrafiyaları qeyd etmək olar.

Dissertasiyanın yazılması zamanı yeddicildlik "Azərbaycan tarixi"-nin müvafiq dövr cildlərindən istifadə edilmişdir[2].

Bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, Azərbaycan-Gürcüstan münasibətləri və Rusiyanın Cənubi Qafqaz siyasəti problemi daim öz aktuallığını saxlayır.

**Tədqiqatın mənbə bazası.** Tədqiqat zamanı çoxsaylı ədəbiyyatla yanaşı araşdırılan problemə dair zəngin mənbə dairəsindən də istifadə olunmuşdur. Məhz müxtəlif tarixi mənbələrdən, nəşr olunmuş sənədlərdən əldə etdiyimiz məlumatların müqayisəli təhlili araşdırılan problemi əhatəli və ətraflı şəkildə tədqiq etmək imkanı vermişdir.

Araşdırılan problemlə bağlı ən mühüm mənbə kimi ilk növbədə yerli qaynaqları qeyd etmək lazımdır. Onların içərisində Mirzə Adıgözəl bəyin "Qarabağnamə", Əhməd bəy Cavanşirin "Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair", Mirzə Camal Cavanşir Qarabağinin "Qarabağ tarixi", Əbdüllətif Əfəndinin "Şəki xanlarının tarixi", Molla Məhəmməd əl-Carinin "Car salnaməsi" və Abbasqulu Ağa Bakıxanovun "Gülüstani İrəm" əsərləri xüsusi yer tutur[3].

---

[1] Süleymanov M. Gülüstan müqaviləsi. I c. Bakı, "Elm və təhsil", 2014; Əliyev F., Əliyev M. Naxçıvan xanlığı (1747-1728). Bakı, Azərbaycan Dovlət Nəşriyyatı, 1996; Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı, "Şərq-qərb" nəşriyyatı, 2007; Mustafazadə T.T. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı, Elm, 2002; Наджафли Г.Дж. Азербайджан в XVIII-XIX веках. Бишкек, 2010; Qarayev E.T. İrəvan xanlığı (1747-1828). Bakı, "Avropa" nəşriyyatı, 2010; Umudlu V.U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və mustəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı, "Elm", 2004; Paşayeva E.M. 1801-1830-cu illərdə Rusiya, Türkiyə və İran münasibətlərində Azərbaycan problemi. // Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2005.

[2] Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). Bakı, Elm, 2007; IV cild (XIX əsr). Bakı, Elm, 2007.

[3] Mirzə Adıgözəl bəy. "Qarabağnamələr"// Qarabağnamələr. I cild, s. 7-116. Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2006; Əhməd bəy Cavanşir. "Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair". Müqəddimə, qeydlər və tərcümə Ə.B.Şükürzadənindir. s.149-190//Qarabağnamələr. Bakı, Yazıçı, 1989; Mirzə Camal Cavanşir Qarabaği. "Qarabağ tarixi". tərcümə, müqəddimə və qeydlər F.Babayevindir. s.103-148//Qarabağnamələr. Bakı, Yazıçı, 1989; Эфэнди А.Л. История Шекинских

XIX əsrin əvvəllərində qısa fasilələrlə bir müddət Şəki xanı olmuş Fətəli xanın (Fətəli xan Şəki xanı Hacı Çələbinin nəvəsi Hüseyn xanın oğlu, Ağa Məhəmməd xan tərəfindən kor edilərək Təbrizə sürgün olunmuş Məhəmməd Həsən xanın qardaşı idi – İ.K.) oğlu Əbdüllətif Əfəndinin Şəki xanlarının qısa tarixində bizim tədqiqat obyektimizə daxil olan məsələlərdən də bəhs olunur.

Müasir Azərbaycan tarixşünaslığının tanınmış nümayəndəsi A.A.Bakıxanovun əsərinin bir sıra qeyri-dəqiqliklərinə baxmayaraq, ilk mənbə kimi dəyəri əvəzsizdir. Burada istər xanlıqlar arasında münasibətlər, istər Azərbaycan xanlıqlarının Kartli-Kaxetiya çarlığı ilə əlaqələri, istərsə də bölgədə maraqları olan iri dövlətlərin Cənubi Qafqaz siyasətinə dair çox zəngin məlumatlar ehtiva olunmaqdadır.

XVIII əsr naməlum yerli müəllif tərəfindən qələmə alınmış, t.ü.f.d. Sevda Süleymanovanın ərəbcədən tərcümə edərək, giriş, şərhlər və qeydləri ilə nəşr etdirdiyi Car salnaməsində isə Car-Balakən camaatlıqlarının Kartli-Kaxetiya çarlığı ilə qarşılıqlı yürüşlər, daimi müharibələr şəklində cərəyan edən əlaqələri, carlıların Hacı Çələbi ilə ittifaqda gürcü çarlığına qarşı apardığı əməliyyatlar, eləcə də camaatlıqların Cənubi Qafqazın siyasi həyatında oynadığı rol haqqında qiymətli məlumatlara rast gəlirik. Təsadüfi deyil ki, bir neçə nüsxədə günümüzə gəlib çatmış bu mənbənin digər bir adı "Car müharibələri tarixi"dir.

Tədqiqatın mənbə bazasından bəhs edərkən qeyd etmək lazımdır ki, araşdırılan problemlə bağlı nəşr olunmuş arxiv sənədlərindən də ilkin qaynaq kimi tədqiqat zamanı geniş şəkildə istifadə olunmuşdur. XVIII əsrin 60-cı illərinin sonu – 90-cı illərinin əvvəllərində Qafqazdakı feodal dövlətləri və xalqlar arasındakı münasibətlərə dair iki cildlik sənədlər toplusu, XIX əsrin sonlarında Peterburq Universitetinin professoru A.A.Tsaqareli tərəfindən nəşr olunmuş üç cildlik Gürcüstana dair XVIII əsrin fərmanları və digər tarixi sənədlər toplusu, XVIII əsrin ikinci yarısında rus-gürcü münasibətlərinə dair materiallar, XVIII əsrin ikinci otuzilliyində erməni-rus münasibətləri[1] və tədqiq olunan problemlə bağlı müxtəlif sənədlər toplularında[2] bu problemlə bağlı Rusiya Federasiyasının

---

ханов. Перевел с тюркского А.Дадашов. Баку, «Хатун плюс», 2010; Molla Məhəmməd əl-Cari. Car salnaməsi. ərəbcədən tərcümə, giriş, şərhlər və qeydlər Sevda Süleymanovanındır. Bakı, "Səda" nəşriyyatı, 1997; Бакиханов А.А. Гюлистан-и Ирам. Баку, изд-тво Елм, 1991.

[1] Грамоты и другие исторические документы XVIII столетия, относящиеся к Грузии. Т.1, с 1768 по 1774 год. Под ред А.А.Цагарели, Спб. Типография Б.Киршбаума, 1891; Т.2, вып.2, с 1769 по 1801 год. Спб. Типография Б.Киршбаума. 1902.

[2] Армяно-русские отношения во втором тридцатилетии XVIII века. Сборник документов. Т. III. Ереван, изд-тво Академии Наук Армянской ССР, 1978; Межкавказские политические и торговые

Moskva və Sankt-Peterburq şəhərlərinin dövlət arxivlərində, eləcə də Gürcüstan Mərkəzi Tarix Arxivində saxlanılan sənədlər toplanmışdır.

Araşdırılan problemlə bağlı mühüm mənbələrdən rus hərbçilərinin Azərbaycan hakimləri ilə yazışmaları, məktubları, raportları və hesabatlarını göstərmək olar. Bu sənədlər rus qafqazşünası A.P.Berje tərəfindən hazırlanmış 12 cildlik Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarına daxil edilmişdir ki, həmin aktların ilk beş cildindən tədqiqat zamanı geniş şəkildə istifadə olunmuşdur.

Tədqiqatın mənbə bazasından bəhs edərkən Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivindən əldə olunmuş materialları xüsusilə qeyd etmək lazımdır. Həmin arxivin müxtəlif işlərindən əldə olunmuş məlumatlardan əsasən Rusiyanın Cənubi Qafqaz bölgəsi ilə bağlı siyasəti problemi, İrəvan və Qarabağ xanlıqlarının Kartli-Kaxetiya çarlığı ilə əlaqələrindən bəhs olunarkən faydalanmaqla, bu sənədlər ayrı-ayrı vaxtlarda Gürcüstan, Rusiya arxivlərindən toplanmış sənədlər təşkil edir.

Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivindən tədqiq olunan problemlə bağlı 2 (Канцелярия Главноуправляющего Закавказким краем), 416 (Кавказская Археографическая Комиссия) saylı fondlardan əldə olunmuş materiallar da dissertasiyanın mənbə bazasını təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi mövcud sənədlər, tarixi ədəbiyyat və digər mənbə məlumatları əsasında çar Rusiyasının Cənubi Qafqaz siyasəti, onun burada erməni-gürcü xristian bufer dövləti yaratmaq niyyəti, Osmanlı dövləti və Qacarlar İranının da bu bölgə uğrunda mübarizəsi, eləcə də Azərbaycan xanlıqları ilə Kartli-Kaxetiya çarlığı arasındakı münasibətləri ətraflı və əhatəli şəkildə araşdırmaqdan ibarətdir. Bu məqsədə çatmaq üçün tədqiqat işində aşağıdakı konkret vəzifələr qarşıya qoyulmuş və onların həllinə cəhd göstərilmişdir;

– Xanlıqların yaranmasından sonra Cənubi Qafqazdakı siyasi vəziyyətin ümumi mənzərəsini vermək;

– Azərbaycanı vahid dövlət şəklində birləşdirmək uğrunda mübarizə aparmış ayrı-ayrı xanlıqlar arasında ziddiyyətlərin səbəblərini üzə çıxarmaq;

– Kartli-Kaxetiya çarlığının İrəvan xanlığı, Gəncə xanlığı, Car-Balakən camaatlıqları və digər tarixi Azərbaycan əraziləri ilə bağlı işğalçı

---

связи Восточной Грузии (конец 60-х-начало 90-х годов XVIII в.). Документы и материалы. Материалы подобрал и подготовил к печати В.Н.Гамрекели. вып 1. Тбилиси, изд-тво «Мецниереба», 1980; вып II. Тбилиси, изд-тво «Мецниереба», 1991.

planlarını, bu planların həyata keçirilməsində çar Rusiyası amilinə bel bağlamasının bir sıra məqamlarını aydınlaşdırmaq;

– Qafqaz uğrunda mübarizə aparan çar Rusiyası, Osmanlı Türkiyəsi və Qacarlar İranı arasında gedən müharibədə Azərbaycan xanlıqlarının yeri məsələsini araşdırmaq;

– Çarizmin bu bölgəyə münasibətdə olan işğalçılıq siyasətinin Azərbaycan-Gürcüstan münasibətlərinə təsirini açıqlamaq;

– Rusiya imperiyasının XVIII əsrin ikinci yarısında Cənubi Qafqaza ekspansiyasının mərhələlərinin səciyyəvi xüsusiyyətlərini açıb göstərmək;

–Çar Rusiyasının İrəvan xanlığı ilə bağlı siyasi və hərbi maraqlarını tədqiq etmək;

–Çarizmin Cənubi Qafqazla bağlı geosiyasətində gürcülərin və ermənilərin oynadığı rolu hərtərəfli təhlil etmək;

– XIX əsrin əvvəllərində Rusiya imperiyasının işğalçılıq siyasətinə qarşı Azərbaycan və gürcü xalqlarının birgə mübarizəsini işıqlandırmaq.

**Dissertasiya işinin metodoloji əsası.** Dissertasiyanın tədqiqi zamanı seçilmiş tarixi müqayisəli təhlil metodu qarşıya qoyulan məqsədə nail olmaq üçün əsas kimi götürülmüşdür.

Çar Rusiyasının Cənubi Qafqaz, eləcə də Azərbaycanla bağlı işğalçılıq siyasəti araşdırılarkən, tarixi sənədlər, mövcud elmi ədəbiyyat araşdırılmış, müqayisəli surətdə təhlil edilmiş və elmi-məntiqi nəticələr çıxarılmışdır. Bu araşdırmalar nəticəsində əldə edilən məntiqi qənaətlər, onların təhlili Azərbaycan və Gürcüstan dövlət qurumlarının bəhs edilən dövrdə mürəkkəb münasibətlərinin mahiyyətini, Rusiya İmperiyasının Cənubi Qafqaza münasibətdə işğalçılıq siyasətini daha dolğun anlamağa və izah etməyə imkan vermişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın başlıca elmi yeniliyi XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində Azərbaycan-Gürcüstan münasibətləri və çar Rusiyasının Cənubi Qafqaz siyasəti probleminin ilk dəfə kompleks şəkildə və üzvi surətdə əlaqəli olaraq, ayrıca tədqiqat obyekti kimi seçilməsidir. Əldə edilən sənədlərin verdiyi məlumatlar, eləcə də tarixi ədəbiyyat və müxtəlif mənbə materialları bizə bu problemi ətraflı tədqiq etməyə imkan vermişdir. Bu zəngin materialların təhlili bizə aşağıda sadalananları dissertasiyanın elmi yeniliyi hesab etməyə əsas verir.

– Bəhs olunan dövrdə Azərbaycan-Gürcüstan münasibətlərinin dinamikası zəngin tarixi qaynaqların ehtiva etdiyi faktların müqayisəli təhlilinə əsasən araşdırılmışdır;

– XVIII əsrin ikinci yarısında gürcü çarlarının, xüsusən də II

İraklinin Şimali Azərbaycan ərazilərinə, ələlxüsus da Gəncə, İrəvan, Naxçıvan, Şəki xanlıqlarına, Car-Balakən camaatlıqlarına münasibətdə istilaçılıq siyasəti tarixşünaslığımızda bir çox hallarda ilk dəfə dövriyyəyə daxil edilmiş zəngin faktiki baza əsasında öyrənilmiş və səciyyələndirilmişdir;

– müqayisəli-təhlil metoduna əsaslanaraq, II İraklinin güclü Azərbaycan xanları arasında təfriqə salmaq siyasətinin bəzi təfərrüatlarına aydınlıq gətirilmişdir;

– bəhs edilən dövrdə Kartli-Kaxetiya çarlığı və Azərbaycan xanlıqları arasında münasibətlərin məzmununa xarici-siyasi amilin – region uğrunda böyük dövlətlərin mübarizəsinin təsiri araşdırılmışdır;

– Şimali Azərbaycan xanlıqları ilə bağlı çar Rusiyası və Kartli-Kaxetiya çarlığının istilaçılıq niyyətləri təhlil edilmişdir;

– çar Rusiyasının bəhs olunan dövrdə Şimali Azərbaycanla bağlı mübhəm geosiyasi planlarının ayrı-ayrı məqamları, onun bizim tarixi torpaqlarımızda xristian erməni-gürcü dövləti yaratmaq layihələri yeni faktlara istinadən araşdırılmışdır;

– XIX əsrin əvvəllərində azərbaycanlı-gürcü birliyinin çarizmə qarşı birgə mübarizə tarixi nəzərdən keçirilmiş, 1812-ci il Kaxetiya üsyanında azərbaycanlıların iştirakı faktları təhlil edilmişdir.

**Tədqiqatın nəzəri və əməli əhəmiyyəti.** Dissertasiyanın əməli əhəmiyyəti ilk növbədə ondan ibarətdir ki, tədqiqat işində gətirilən faktiki material və ümumiləşdirmələrdən, bu materiallardan əldə olunmuş elmi nəticələrdən Azərbaycan tarixinə dair ümumiləşdirici əsərlərin, Azərbaycan tarixi üzrə dərsliklərin hazırlanmasında, eləcə də xarici siyasət konsepsiyamızın müəyyən olunmasında istifadə oluna bilər.

Tədqiqat zamanı əldə edilən elmi nəticələrdən eyni zamanda ölkəmizin ali məktəblərinin tarix fakültələrində mühazirə və xüsusi kursların oxunması məqsədilə də istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Qafqaz tarixi " şöbəsində yerinə yetirilmiş, iki dəfə müzakirə olunaraq müdafiəyə təqdim olunmuşdur. Tədqiqatın əsas müddəaları, başlıca nəticələri müəllifin bu problemlə bağlı nəşr etdirdiyi elmi məqalələrində, həmçinin respublikamızda keçirilən, eləcə də beynəlxalq elmi-praktik konfranslarındakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, 3 fəsil, 6 yarımfəsil, nəticə, istifadə olunmuş mənbə və ədəbiyyatın siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın xronoloji çərçivəsi göstərilir, tədqiqatın məqsəd və vəzifələri müəyyən olunur, öyrənilmə səviyyəsi araşdırılır, tədqiqatın mənbə bazası təhlil edilir, əldə olunan elmi yeniliklər verilir, elmi-nəzəri və praktik əhəmiyyəti qeyd edilir.

Dissertasiyanın "**XVIII əsrin 50-80-ci illərində Cənubi Qafqazda siyasi vəziyyət"** adlanan I fəsli iki yarımfəsildən ibarətdir. "**Xanlıqların yaranmasından sonra Cənubi Qafqazda hərbi-siyasi durum"** başlıqlı birinci yarımfəsildə XVIII əsrin II yarısında Azərbaycanda mövcud olmuş siyasi pərakəndəliyi dönəmində onun ərazisinin xırda dövlət qurumlarına – müstəqil xanlıqlara və sultanlıqlara parçalanması, bu zaman Cənubi Qafqazda yaranmış siyasi durum və Azərbaycan-Gürcüstan əlaqələrinin səciyyəvi xüsusiyyətləri tədqiq olunur.

Xanlıqların yaranmasından sonra Cənubi Qafqaz üçün daimi daxili ara çəkişmələri səciyyəvi idi. Bu mübarizənin gedişində buradakı hakimliklərin toqquşan və üst-üstə düşən maraqları onları müxtəlif qruplaşmalarda birləşməyə sövq edirdi.

Bəhs olunan dövr Azərbaycan-Gürcüstan münasibətlərində Car-Balakən camaatlıqlarının özünəməxsus yeri olmuşdur. Bu bölgəni tarixi ərazisi hesab edən Kartli-Kaxetiya hakimlərinin əsassız iddiaları üzündən XVII-XVIII əsrlər tərəflər arasında qanlı toqquşmalarla müşayiət olunmuşdu. O dövrün yerli qaynağı bu barədə yazırdı: "Onlar arasında daim baş verən qətl və vuruşmalar ona gətirib çıxarmışdı ki, nə Kaxetdə tavad qalmışdı, nə də Carda igid"[1].

Gürcü hakimlərinin hədəf aldığı Şimali Azərbaycan xanlıqlarından biri də Gəncə xanlığı idi. Önəmli geostrateji mövqeyə malik olan Gəncə xanlığı Kartli və Kaxetiya çarlıqları üçün böyük əhəmiyyət kəsb edirdi. Lakin bu zaman Gəncə xanlığı üzərində Kaxetiya çarlığı ilə Qarabağ xanlığının maraqları toqquşurdu.

Sözügedən dövrdə Şimali Azərbaycan xanları arasındakı çəkişmələr gürcü hakimlərinin məkrli siyasətlərinin reallaşdırılmasına münbit şərait yaradırdı. Gürcü hakimləri Azərbaycanın xırda qurumlarının təmərküzləşə, aralarındakı ziddiyyətləri çözə bilməməsindən çox məharətlə istifadə edirdilər. Hacı Çələbi xanın Gəncə və Şimali Azərbaycanın digər qərb torpaqları uğrunda mübarizəsi həmin yerlərə iddialı Qarabağ xanı

---

[1] Molla Məhəmməd əl-Cari. Car salnaməsi. ərəbcədən tərcümə, giriş, şərhlər və qeydlər Sevda Süleymanovanındır. Bakı, "Səda" nəşriyyatı, 1997, s. 21.

Pənahəli xanla Kartli və Kaxetiya hakimləri arasında ona qarşı bir növ taktiki alyansın yaranmasına səbəb olmuşdu[1].

Müstəqil xanlığa çevrilənə qədər Azərbaycan Səfəvilər dövlətinin Çuxursəd bəylərbəyiliyinin mərkəzi vilayəti olmuş, əsası Mirmehdi xan Əfşar tərəfindən qoyulmuş İrəvan xanlığı da daim gürcü çarlarının işğalçı siyasətindən əziyyət çəkmişdi. Bu zaman ermənilərin xəyanəti də öz işini görürdü[2].

Gürcü hakimləri Şimali Azərbaycan xanlarının bəziləri ilə müəyyən vaxtlarda ittifaqa girməsinə baxmayaraq, toqquşan maraqlar səbəbindən xanlara etibar etmirdilər. Ümumiyyətlə, gürcü hakim dairələri daim xristian müttəfiq axtarışında olmuş və bu məqsədlə zaman-zaman Rusiyaya müraciət etmişlər[3]. Lakin həmin vaxt əsasən Avropada nüfuz uğrunda mübarizəyə başı qarışmış Rusiya Gürcüstanın işlərinə müdaxilə etməklə Osmanlı dövləti ilə də münasibətlərinin gərginləşməsini arzulamırdı, buna görə də gürcü nümayəndələrinin bu istiqamətdəki bütün səyləri uzun müddət bir nəticə verməmişdi.

Bu dövrdə II İrakli Şimali Azərbaycan xanlarından nisbətən zəif hesab etdiyi İrəvan və Gəncəyə münasibətdə işğalçılıq kursunu seçmişdisə, İbrahimxəlil xan və Fətəli xanla əlaqələrində daha ehtiyatlı hərəkət edirdi; əgər birincisi ilə onu dırnaqarası müttəfiqlik münasibətləri bağlayırdısa, Quba xanından o, çar Rusiyasının yardımı ilə qorunmaq niyyətində idi.

Məhz Şimali Azərbaycan xanlarının arasında mövcud ziddiyyətlər Kartli-Kaxetiya hakimlərinə nəinki öz hakimiyyətlərini qorumaq, hətta müəyyən dönəmlərdə bəzi xanlıqlarımızın üzərində hökmranlıqlarını bərqərar etmək üçün əlverişli şərait yaradırdı. Lakin bölgədəki mövcud mürəkkəb duruma, rus-gürcü ittifaqının törətdiyi maneələrə baxmayaraq, qubalı Fətəli xan Azərbaycan torpaqlarının vahid dövlət şəklində birləşdirilməsi istiqamətində ciddi cəhdlər göstərmişdi.

Bu dövrdə II İraklinin regionda mövqeyini gücləndirən önəmli bir amil Rusiya imperiyası ilə artmaqda olan müttəfiqlik münasibətləri idi. XVIII əsrin 60-cı illərin sonlarında Totlebenin başçılığı altında rus qüvvələrinin Gürcüstana gəlişi də II İraklinin Azərbaycan xanlıqlarına, əlalxüsus da nisbətən zəif təsir bağışlayan Gəncə və İrəvan xanlıqlarına münasibətdə daha təcavüzkar siyasət yürütməyə imkan vermişdi.

---

[1] İsmayilov M.Ə. Şəki (tarixi oçerk). Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1982, s. 22

[2] Армяно-русские отношения во втором тридцатилетии XVIII века. Сборник документов. Т. III. Ереван, изд-тво Академии Наук Армянской ССР, 1978, s. 241.

[3] Армяно-русские отношения во втором тридцатилетии XVIII века. Сборник документов. Т. III. Ереван, изд-тво Академии Наук Армянской ССР, 1978, s. 278.

XVIII əsrin 70-ci illərinin əvvəllərindən istər Azərbaycan-Gürcüstan münasibətləri, istərsə də iri regional dövlətlərin, o cümlədən də çar Rusiyasının Cənubi Qafqaz uğrunda mübarizəsi yeni mərhələyə qədəm qoyur. Bu zaman sözügedən dönəmin böyük regional dövlətləri – çar Rusiyası, Osmanlı imperiyası, 1790-cı illərdən isə həmçinin Qacarlar İranı bu münasibətlərin məzmununu müəyyənləşdirən amilə çevrilir. Azərbaycandakı siyasi pərakəndəlikdən, eləcə də ayrı-ayrı xanlıqlar arasında mövcud olan narazılıqlardan məharətlə istifadə edən Kartli-Kaxetiya çarı II İrakli nəinki özünü qüdrətli Şimali Azərbaycan xanlarının təhlükəsindən qoruya bilmiş, hətta bəzən onları qarşı-qarşıya qoymaqla öz məkrli niyyətlərini həyata keçirməyə müvəffəq olmuşdu. Gürcü hökmdarı çar Rusiyası amilindən də yararlanaraq, özünün ilk növbədə Gəncə və İrəvan xanlıqları, Car-Balakən camaatlıqları istiqamətində istilaçılıq planlarını həyata keçirməyə çalışırdı. Bütün bu məsələlərə əsərin I fəslin **"XVIII əsrin 70-80-ci illərində Şimali Azərbaycan xanlıqlarının gürcü çarlığı ilə münasibətləri"** adlanan ikinci yarımfəslində aydınlıq gətirilir.

Bəhs olunan dövrdə Kartli-Kaxetiya çarlığında böhranlı vəziyyət yaranmışdı. Ölkənin ayrı-ayrı yerlərində geniş torpaqlar ələ keçirməyə çalışan iri feodal əyanların özbaşınalıqlarının qarşısını alan II İrakli eyni zamanda xarici siyasətdə də fəallıq nümayiş etdirməyə çalışırdı. Şimali Azərbaycan xanlarına qarşı Rusiyanın timsalında güclü müttəfiq əldə etmək istəyən II İrakli oğlu Levon və katolikos Antonio ilə Peterburqa, imperatriçə Yekaterinaya göndərdiyi 1771-ci il 30 dekabr tarixli məktubunda Kartli-Kaxetiya çarlığının çar Rusiyasının himayəsinə alınmasını xahiş edirdi[1]. Lakin Osmanlı Türkiyəsi ilə müharibədə hadisələrin sülh danışıqlarına doğru getdiyi bir vaxtda osmanlıları qıcıqlandırmaq istəməyən çar Rusiyası tərəfi Kartli-Kaxetiyanın bu təkliflərinə müsbət cavab verməmişdi. II İraklinin faktiki olaraq Rusiyanın protektoratlığını qəbul etmək barədəki xahişi bu dəfə də qəbul olunmamışdı.

Bu dövr, XVIII əsrin 70-ci illəri feodal pərakəndəliyi dövrünü yaşayan Azərbaycanı vahid dövlət şəklində birləşdirməyə çalışan iki feodal hakim – qubalı Fətəli xanla qarabağlı İbrahimxəlil xan arasında gedən daxili mübarizə ilə səciyyəvidir. Bu iki feodal hakim arasında düşmən münasibətlərinin yaranmasında, ixtilafın qızışdırılmasında II İraklinin xüsusi rolu olmuşdu. O, Şimali Azərbaycan xanlıqlarına münasibətdə məkrli planlarının reallaşması yolunda ən ciddi təhlükə, əngəl hesab etdiyi

[1] Грамоты и другие исторические документы XVIII столетия, относящиеся к Грузии. Т.1, с 1768 по 1774 год. Под ред А.А.Цагарели, Спб. Типография Б.Киршбаума, 1891, s. 329-332.

iki qüdrətli Azərbaycan hökmdarının – Qarabağ xanı İbrahimxəlil xanla qubalı Fətəli xanın yaxınlaşmasına mane olmağa çalışmış, nəticədə İbrahimxəlil xanı öz tərəfinə çəkməyə nail olmuşdu. Getdikcə güclənməkdə olan Fətəli xandan ehtiyat edən İbrahimxəlil xan Quba xanının 1770-ci ildə ona etdiyi ittifaq təklifini rədd edərək, Fətəli xana qarşı II İrakli ilə birləşir[1].

II İrakli eyni zamanda çar Rusiyasının yardımı ilə də Fətəli xanı zəiflətməyə çalışırdı. Lakin onun bu məqsədlə XVIII əsrin 70-ci illərində dəfələrlə çar Rusiyası hökumətinə etdiyi müraciətlər öz nəticəsini verməmişdi; çarizm II İraklini Qafqazda eyni dərəcədə müttəfiqi hesab etdiyi Fətəli xana qarşı düşmənçilik mövqeyindən əl çəkməyə çağırmışdı[2].

Həmin əsrin 70-ci illərinin ikinci yarısında gərginləşmiş Osmanlı – İran münasibətləri də Qafqazın feodal hakimləri arasında gedən mübarizəyə öz təsirini göstərməkdə idi.

Kərim xan Zəndin ölümündən sonra İranda hakimiyyət uğrunda mübarizənin yenidən qızışması çar Rusiyasını öz strateji geosiyasi məqsədlərini gerçəkləşdirmək üçün hərəkətə keçirir. İmperiyanın hakim dairələri "İranda qarışıqlığın yaranması ilə Xəzər dənizinin cənubunun ələ keçirilməsi üçün hərəkətə başlamaq" barədə I Pyotrun vəsiyyətini həyata keçirmək məqsədilə yaranmış vəziyyətdən yararlanmağa çalışırdı. Paralel olaraq Osmanlı Türkiyəsinin ərazisində rus çar ailəsindən olan hökmdarın başçılığı altında Bizans imperiyasının bərpa edilməsini nəzərdə tutan "Yunan layihəsi" yenidən gündəmə gətirilir.

Belə bir vəziyyətdə çar Rusiyasının xüsusi geostrateji əhəmiyyətə malik olan Qafqaza müdaxiləsinin yeni mərhələsi başlayır. Bəhs edilən dönəmdə Osmanlı dövlətinin Avropada yeni torpaq itkilərinə məruz qalması, Bessarabiya, Moldaviya və Valaxiyada çar Rusiyasından vassal asılılığında olacaq Dakiya dövlətinin yaradılmasını nəzərdə tutan planın gerçəkləşdirilməsinin əməli müstəviyə çıxarılması strateji məkan kimi Cənubi Qafqazın çar Rusiyası üçün önəmini artırırdı. Çar Rusiyası öz geostrateji planlarının həyata keçirilməsində regionda müttəfiqi kimi Qafqazın xristian əhalisini – pravoslav Gürcüstanı, daha sonra isə azsaylı, hər zaman güclü hami vasitəsilə öz məkrli niyyətlərinin icrasına ümidli erməni icmalarını görürdü.

Erməni dairələri də çar Rusiyasının protektoratlığı altında erməni-gürcü dövlətini yaratmaq xəyalında idi. Bu məqsədlə Rusiya hakimiyyət

---

[1] Azərbaycan-Gürcüstan münasibətləri tarixi (XVIII əsr-XXI əsrin əvvəlləri). Bakı, "Şərq-qərb" nəşriyyat evi, 2013, s. 29-30.

[2] Абдуллаев Г.В. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией. Баку, изд-тво АН Азерб ССР, 1965, s. 537.

orqanları ilə danışıqların aparılması Eçmiədzin katolikosu tərəfindən hələ 1773-cü ildə özünün bu ölkədəki nümayəndəsi təyin etdiyi, çar Rusiyasında yaşayan ermənilərin arxiyepiskopu İosif Arqutinskiyə həvalə olunmuşdu[1]. Q.Q.Payçadze özünün Georgiyevsk traktatına həsr etdiyi əsərində göstərir ki, bəhs edilən dövrdə erməni xadimləri qarşılarına II İraklinin başçılığı altında birləşmiş erməni-gürcü dövlətinin yaradılması məqsədini qoymuşdular[2]. Bu faktın özü ermənilərin çoxdankı bədnam niyyətlərini gerçəkləşdirmək istiqamətində həmin vaxt yenidən əməli fəaliyyətə başladığını göstərirdi. Bu, eyni zamanda Cənubi Qafqazda Osmanlı Türkiyəsi ilə sərhəddə xristian bufer dövləti yaratmaq niyyətində olan çar Rusiyasının da planlarına uyğun gəlirdi.

II İrakli 1783-cü il iyunun 24-də Georgiyevsk müqaviləsində "Gəncə və İrəvanın maliki və hökmdarı" adlandırılırdı. Ümumiyyətlə, o dövrün sənədlərində gürcü çarının titulu adətən aşağıdakı qaydada verilirdi: "İrakli, Teymurazın oğlu, Kartli və Kaxeti çarı, Qazax, Borçalı, Şəmşəddil. Şamxor, Gəncə. İrəvan və digər yerlərin hakimi"[3]. Maraqlısı odur ki, bu titul düsturunda əsl gürcü əraziləri ümumi Kartli-Kaxetiya kimi təsbit olunsa da, Şimali Azərbaycan vilayətləri ayrı-ayrılıqda vurğulanır. Əslində belə bir formulə gürcü çarının rus hərbi gücünə arxalanaraq, əldə etmək istədiyi Azərbaycan torpaqlarını göstərirdi.

Rusların Gürcüstana gəlişi Qarabağın xristian məliklərini də hərəkətə gətirmişdi. Qarabağda İbrahimxəlil xanın əleyhinə olan məliklər Potyomkinə bildirirlər ki, onlar xanın hakimiyyətinin devrilməsindən sonra Rusiyanın himayəsi altında xristian dövləti yaratmaq niyyətindədirlər[4].

Rusiya təhlükəsinin getdikcə yaxınlaşdığı bir vaxtda Osmanlı Türkiyəsi ciddi-cəhdlə Azərbaycan xanlarını aralarındakı ədavətə son qoyaraq, rus-gürcü ittifaqına qarşı birləşdirməyə çalışırdı. Süleyman paşanın Fətəli xana göndərdiyi, lakin rusların əlinə keçdiyi məktubunda o, belə təhlükəli məqamda bütün müsəlman hakimlərini bir nəfər kimi ayağa qalxaraq, düşmənə müqavimət göstərməyə çağırır və Osmanlı dövləti tərəfindən hər cür yardımın göstəriləcəyini vəd edirdi[5].

Qafqazda maraqları olan iri dövlətləri arasında nüfuz dairəsi uğrunda mübarizənin getdiyi strateji bölgələrdən biri də İrəvan xanlığı idi.

---

[1] Пайчадзе Г.Г. Георгиевский трактат. Тбилиси, изд-тво, «Мецниереба», 1983, s. 92-93.
[2] Пайчадзе Г.Г. Георгиевский трактат. Тбилиси, изд-тво, «Мецниереба», 1983, s. 166.
[3] Грамоты и другие исторические документы XVIII столетия, относящиеся до Грузии. Т.2, вып.2, с 1769 по 1801 год. Под ред А.А.Цагарели, Спб. Типография Б.Киршбаума. 1902, s. 10-11
[4] Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). Bakı, Elm, 2007, s. 46.5
[5] Mustafazadə T.T. Quba xanlığı. Bakı, Elm, 2005, s. 147.

Osmanlı Türkiyəsi ilə Qafqazda maraqları toqquşan Rusiya II İraklinin vasitəsilə qarşıda baş verə biləcək müharibə zamanı strateji əhəmiyyətli məntəqə olan İrəvana nəzarəti ələ keçirməyə çalışırdı.

Lakin başlanmış növbəti 1787-1791-ci illər rus-türk müharibəsi nəticəsində təcili olaraq Gürcüstandan rus qoşunlarının çıxarılması barədə əmr Cənubi Qafqazda qüvvələr nisbətinin yenidən II İraklinin əleyhinə dəyişməsinə səbəb olur. Belə ki, 1787-1791-ci illər rus-türk müharibəsi ərəfəsində Osmanlı dövlətinin dağlıların Gürcüstan ərazisinə olan yürüşlərinin qarşısını alacağı öhdəliyi qarşısında çar Rusiyasının qoşunlarını Gürcüstandan çıxarmağa razı olmuşdu[1]. Savaşın vüsət aldığı bir zamanda Rusiyanın bu öhdəliyə faktiki riayət etməsi məhz Osmanlı Türkiyəsinin dağlı xalqlarını Gürcüstana qarşı yürüşə təhrik edə bilməsi qorxusundan doğurdu.

XVIII əsrin 70-80-ci illəri həm də Azərbaycanı vahid dövlət şəklində birləşdirmək uğrunda mübarizə aparan qubalı Fətəli xanla qarabağlı İbrahimxəlil xan arasında gedən daxili ara mübarizəsi dövrüdür. Bu iki xan arasında düşmən münasibətlərinin yaranmasında Şimali Azərbaycan xanlıqlarına münasibətdə məkrli niyyətləri olan II İraklinin xüsusi rolu olmuşdur. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Şimali Azərbaycanın iri hakimlərinin şəxsi mənafelərindən keçə bilməməsi bəhs olunan dövrdə xırda xanlıqlarımıza göz dikən II İrakli üçün məkrli niyyətlərinin gerçəkləşdirilməsinə münbit şərait yaratmışdı. O, müxtəlif dövrlərdə İbrahimxəlil xanı öz tərəfinə çəkməyə müvəffəq olmaqla, onun Şimali Azərbaycan xanlarından ən çox ehtiyat etdiyi Fətəli xanla birləşməsini əngəlləyə bilmişdi. Bu da gürcü çarına vaxtaşırı İrəvan və Gəncə xanlıqlarına münasibətdə işğalçılıq siyasəti yeritməyə imkan vermişdi.

Dissertasiyanın iki yarımfəsildən ibarət ikinci fəsli **"XVIII əsrin sonlarında bölgədəki iri dövlətlərin Cənubi Qafqaz siyasəti"** adlanır. Bu fəslin **"XVIII əsrin 90-cı illərində Azərbaycan – Gürcüstan münasibətləri və böyük dövlətlərin Cənubi Qafqaz maraqları"** adlı birinci yarımfəslində bölgədəki iri güclərin Qafqaz uğrunda mübarizəsi tədqiq olunur.

XVIII əsrin 90-cı illərinin əvvəlində Cənubi Azərbaycan xanlıqlarını özündən asılı vəziyyətə salan Ağa Məhəmməd xan, 1794-cü

---

[1]Джахиева Э.Г. Северо-восточный Кавказ в международных отношениях: историко-правовые аспекты договоров, заключенных Россией с Турцией и Ираном. 1774-1826 гг. АДД. Махачкала, 2007, s. 28.

ilin sonlarında özünün son rəqiblərindən kirmanlı Lütfəli xanı da məğlubiyyətə uğradır[1] və Cənubi Qafqaz uğrunda mübarizəyə qoşulur. O bir növ 1792-ci il Yassı sülhünün nəticələrinə görə bu bölgədə fəal siyasət yürütmək imkanlarından məhrum olmuş Osmanlı imperiyasını əvəz edir. Tərəflərin 1790-cı illərin ortalarında növbə ilə Cənubi Qafqaza viranedici yürüşləri bu mübarizənin kəskin fazaya qədəm basmasından xəbər verirdi. Rusiya imperiyası və Qacarlar İranı bu mübarizədə yerli feodal hakimlərin dəstəyini almağa ciddi cəhdlər göstərirdi. Bu zaman öz müstəqilliklərini itirmək istəməyən Azərbaycan xanları bölgə dövlətlərinin işğalçılıq siyasətindən qorunmaq məqsədilə onlar arasında manevr etmək məcburiyyətində qalırdılar.

Bəzi Şimali Azərbaycan xanlarının çar Rusiyasının himayəsinə qəbul olunmaları xahişi ilə Peterburq sarayına etdikləri müraciətlər onların rus hökumətinə olan rəğbətinin nəticəsi deyil, məhz Qacar təhlükəsinə qarşı yardım almaq niyyətindən irəli gəlirdi. Həmçinin çar Rusiyası tərəfindən də onların müstəqilliklərinə edilən istənilən qəsd xanların ciddi müqaviməti ilə üzləşirdi.

Ağa Məhəmməd xan Qacarın Tiflis yürüşü məsələsi müasir milli tarixşünaslıqda tədqiqata ciddi ehtiyac duyulan problemlərdəndir. Bu yürüş zamanı çar Rusiyasının müttəfiqini taleyin ümidinə buraxması, 1783-cü il Georgiyevsk traktatına əsasən üzərinə götürdüyü öhdəliyi yerinə yetirməməsi müxtəlif suallar doğurmuşdur. Butkov bunu, Rusiya sarayının gürcülərin bu qədər zəif olacaqlarını, Ağa Məhəmməd xanın isə bu dərəcədə cəld və cürətli hərəkət edəcəyini gözləməməsi ilə izah edir[2]. Bu barədə gürcü tarixçisi Roqava isə yazır ki, Ağa Məhəmməd xanın Tiflisi dağıtmasının qarşısını almayan Rusiya bununla Gürcüstanı zəiflətmək və onun Rusiya təbəəliyinə keçməsini tezləşdirmək istəyirdi[3].

Bu arada rusların Cənubi Qafqaza hazırlanan yürüşünə rəhbərlik II Yekaterinanın sevimlisi Valerian Zubova həvalə olunur. Bu yürüşdə Rusiyada yaşayan ermənilərin arxiyepiskopu İosif Arqutinski-Dolqorukovun da iştirak etməsi rusların Cənubi Qafqazda ermənilərə də dövlət yaratmaq niyyətlərindən xəbər verirdi[4]. Zubovun başçılığı altında Cənubi Qafqaza

---

[1] Mustafazadə T.T. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı, Elm, 2002, s. 229.
[2] Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803. ч.II, СПб. Типография императорской Академии Наук, 1869, s. 343.
[3] Рогава А.А. Зачатки капитализма в Грузии и политика Ираклия II. Тбилиси, изд. «Сабчота Сакартвело», 1974, s. 254.
[4] Мамедова Г.Н. О походе В.Зубова в Азербайджан (1796 г.). Баку – Elm -2003, s. 16.

təşkil olunmuş yürüş, həmin dövr üçün çox böyük rəqəm olan 1700 min rubl pul ayrılmasına baxmayaraq, sonunda nəticəsiz bitir[1].

Bəhs etdiyimiz dönəmdə Azərbaycan-Gürcüstan münasibətləri yeni mərhələyə qədəm qoymuşdu. Bu münasibətlərin məzmununu əvvəlki onilliklərdən fərqli olaraq, artıq ayrı-ayrı ittifaqların qarşıdurması deyil, rus-gürcü birliyinə qarşı müsəlman hakimlərin mübarizəsi müəyyənləşdirirdi. İbrahimxəlil xanın II İrakli ilə, müəyyən dövr istisna olmaqla, İrəvan və Gəncə xanlıqları uğrunda mübarizəsi artıq Qarabağ xanının mütləq üstünlüyü şəklində davam etmiş, əsrin sonuna doğru isə daxili siyasi tənəzzül dövrünü yaşayan Kartli-Kaxetiya çarlığının bu xanlıqlar uğrunda mübarizədən kənarlaşdırılması ilə nəticələnmişdi.

İkinci fəslin **“Rusiyanın Cənubi Qafqaza müdaxiləsinin növbəti mərhələsi”** adlı növbəti yarımfəslində XVIII əsrin sonlarından Cənubi Qafqazda yaranmış qeyri-sabit vəziyyətdən yaralanmağa çalışan çar Rusiyasının ekspansionist siyasətini gücləndirməsi problemi araşdırılır. Həmin dövrdə Qacarlar İranında hakimiyyətə gəlmiş Fətəli şah da bu bölgəni təsir dairəsinə salmaq məqsədilə fəallaşır. Lakin onun fəallığı sələfi Ağa Məhəmməd xanın zamanında olduğu kimi əməli nəticə vermir. Çünki əvvəlki dövrdə olduğu kimi, yenə də Şimali Azərbaycan xanları istər Qacarlar İranının, istərsə də çar Rusiyasının Cənubi Qafqazdakı fəallaşmasına ehtiyatla yanaşır, bunu özlərinin müstəqilliyi üçün ciddi təhlükə kimi görürdülər..

1798-ci ilin yanvarın 11-də II İraklinin ölümündən sonra onun oğulları arasında hakimiyyət uğrunda mübarizənin kəskinləşməsi Kartli-Kaxetiya çarlığındakı daxili siyasi böhranı daha da dərinləşdirdi. Baş verənlər isə Rusiyanı qəti addımlar atmağa tələsdirir. Gürcüstana göndərilən rus alayı 1799-cu ilin noyabrın 26-da Tiflisə daxil olur, dekabrda isə Gürcüstana səlahiyyətli nazir təyin edilmiş, faktiki olaraq isə ölkənin faktiki canişini P.İ.Kovalenski gəlir[2].

Gürcü tarixçisi İ.A.Cavaxişvili o zamanlar Gürcüstanda yaranmış vəziyyətdə ölkənin gələcəyi ilə bağlı məsələyə münasibətidə feodal-əyanların üç qrupunun olduğunu qeyd edir və onun sözlərinə görə onlar

---

[1] Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII веке. Баку, изд-тво АН Азерб ССР, 1948, s. 188.

[2] Хачапуридзе Х.В. К истории Грузии первой половины XIX века. Тбилиси, изд-тво, «Заря Востока», 1950, s. 48.

arasında gedən mübarizə Rusiya tərəfindən Kartli-Kaxetiya çarlığının ləğv edilməsini asanlaşdırmışdı[1].

Bununla da Rusiya Cənubi Qafqazın hərbi cəhətdən işğalına başlamış oldu ki, bu da onu labüdən Qacarlar İranı və Osmanlı Türkiyəsi ilə toqquşdurdu.

Dissertasiyanın "**XIX əsrin əvvəllərində Azərbaycan-Gürcüstan hərbi-siyasi əlaqələri (1801-1813-cü illər)**" adlı üçüncü fəsli də iki yarımfəsildən ibarətdir. Onun "**Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının birinci mərhələsi və Cənubi Qafqazda siyasi durum**" adlı ilk yarımfəslində artıq 1800-cü ilin əvvəllərindən çar Rusiyasının Cənubi Qafqazla bağlı ekspansionist siyasətinin gerçəkləşdirilməsi yolunda əməli fəaliyyətə keçməsi, bu bölgəni hərbi yolla ələ keçirmək üçün atdığı addımları, Cənubi Qafqaza olan işğalçı yürüşü tədqiq olunur.

Çarizmin bu yolda ilk addım kimi Gürcüstanın ilhaqı çıxış edirdi; bununla da o, Şimali Azərbaycan xanlıqlarının işğalına yönəlmiş gələcək ekspansiyası üçün platsdarm əldə etmək niyyətini güdürdü.

Rusların Kartli-Kaxetiya çarlığını ilhaq etməsi ilə tarixi Azərbaycan torpaqları Pəmbək, Qazax, Borçalı və Şəmşəddil də Rusiyaya birləşdirilmiş oldu. Qədim Azərbaycan torpaqlarının çar Rusiyasına ilhaq edilməsi Şimali Azərbaycan xanlarının ciddi narazılığına səbəb olmuşdu[2].

Gürcüstanda asayişi bərqərar edə bilmədiyi üçün Knorrinq gürcü knyaz nəslindən olan, hələ 1796-cı ildə Zubovun yürüşündə iştirak etmiş və Bakı qalasının komendantı olmuş P.D. Sisianovla əvəz olundu. Sisianovun Cənubi Qafqazdakı fəaliyyəti yerli feodal əyanlarla bir növ ehtiyatlı siyasət yeridən sələflərindən fərqlənirdi. Onun imperiyanın xarici işlər naziri A.R.Voronsova məktubunda çarizmin Qafqazdakı maraqlarının təmin olunması üçün yerli hakimlərlə danışıqlara, hər hansı razılığa getməkdənsə (onun fikrincə bu yerli əyanların mövqeyini daha da gücləndirərdi) onların aralarında mövcud olan ziddiyyətlərdən yaralanmağı, daha çox hərbi gücə üstünlük verməyi təklif edirdi[3].

İlk hədəf kimi Car-Balakən camaatlığı və Gəncə xanlığı seçilir. Sisianov artıq 1803-cü ilin baharında Gəncə xanlığının işğalına dair planlar hazırlayırdı. O, aprelin 27-də çar I Aleksandra göndərdiyi raportunda Azərbaycanın istilasında Gəncə, İrəvan, Bakı kimi 3 strateji məntəqənin

---

[1] Хачапуридзе Х.В. К истории Грузии первой половины XIX века. Тбилиси, изд-тво, «Заря Востока», 1950, s. 50.
[2] AMEA TİEA, İş 6304 (5), s. 907-909.
[3] AMEA TİEA, İş 6304 (5), s. 996.

adını çəkirdi və Gəncənin ələ keçirilməsini birinci dərəcəli vəzifə kimi göstərirdi[1].

Qafqaz komandanlığının verdiyi məlumata görə, yanvarın 3-ü səhər tezdən başlanan həmlənin gedişində ruslardan 1 qərargah zabit, 2 ober zabit və 35 aşağı rütbəli, qala müdafiəçilərindən isə 1500 nəfər həlak olmuşdu[2]. Döyüşdə Cavad xan və oğlu da qəhrəmancasına şəhid olmuşdular.

1805-ci il mayın 14-də bağlanmış 11 maddəlik Kürəkçay müqaviləsinə əsasən, Qarabağ xanlığı çar Rusiyasının himayəsinə keçirdi. Traktatın şərtlərinə görə hər bir yeni xan Gürcüstan baş hakimi tərəfindən tanındıqdan sonra vəzifəsinin icrasına başlaya bilərdi və daxili siyasət məsələlərində sərbəst olmaqla, xarici siyasətdə yalnız rus komandanlığı ilə razılaşdırılmış hərəkət edə bilərdi. Xanlığın təhlükəsizliyinin qorunması adı altında Şuşa qalasında 500 nəfərlik rus qarnizonu yerləşdirilirdi[3].

Həmin ilin mayın 21-də Şəki xanlığı, dekabrın 25-də isə Şirvan xanlığının Rusiya təbəəliyinə keçməsi barədə yuxarıdakı şərtlər əsasında müqavilələr bağlanılır[4].

Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalının birinci mərhələsini xarakterizə etdikdə belə qənaətə gəlmək olur ki, Sisianova görə Cənubi Qafqaz – Gürcüstan və Şimali Azərbaycan rus qoşunlarının başlıca hədəfi, strateji məqsədi idi. Regionun itaətə gətirilməsində isə məhz Şimali Azərbaycan ərazilərinin işğalı açar rol oynayırdı. Ona görə də o, əsas diqqətini xanlıqların tabe edilməsinə yönəltmişdi. Qacar İranı ilə də münasibətlər məhz yuxarıda qeyd olunan strateji məqsəd prizmasından nəzərdən keçirilirdi. Başqa sözlə, Sisianov Qacarlar İranı ilə müharibəyə Gürcüstanın yeni əsaslar üzrə quruluşu və Şimali Azərbaycanın istilası kontekstində yanaşırdı.

Tədqiqatın "**Azərbaycan və gürcü xalqlarının işğala qarşı birgə mübarizəsi"** adlı sonuncu yarımfəslində azərbaycanlılarla gürcülərin rus işğalına qarşı birgə mübarizəsi problemi tədqiq olunur. 1804-cü ilin yayında İmeretiyada güclü üsyan baş verir. Qeyd edək ki, bu üsyan zamanı Borçalı və Qazax azərbaycanlılarının, eləcə də car-balakənlilərin üsyanda fəal iştirakı barədə məlumatlar vardır.

---

[1] Обвещание армянским народам, обитающимь в Ганджинской области, от 30-го ноября 1803 года. АКАК, т.2, Тифлис, 1868, док. 1174, s. 590.

[2] Предложение кн. Цицианова Кавказскому гражданскому губернатору Каспарову, от 8-го января 1804 года. АКАК, т.2, Тифлис, 1868, док. 1182, s. 592

[3] Собственноручное письмо гр. М.С.Воронцова к кн. Цицианову. АКАК, т.2, Тифлис, 1868, док. 1398, s. 705.

[4] Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX века (из военно-политической истории). Москва, «Наука», 1969, s. 62.

Rusiyanın Qafqazdakı əsas hissələrinin 1811-ci ilin noyabrında Zeyxur yaxınlığındakı döyüşdə rus hissələrini darmadağın etmiş Şeyxəli xanın başçılığı altında gedən azadlıq mübarizəsinə qarşı səfərbər etməsi[1] 1812-ci ilin əvvəllərində başlamış Kaxetiya üsyanının ilk əvvəl genişlənməsinə imkan vermişdi.

Bu üsyanda bölgənin azərbaycanlı əhalisinin iştirakı məsələsinə gəldikdə isə qeyd etmək lazımdır ki, üsyanın ilk günlərindən onun başında duran şahzadə Qriqorinin Qazax, Şəmşəddil, Borçalı ellərinə və Car-Balakən camaatlıqlarına Kaxetiya üsyançılarına qoşulmaq çağırışlı məktubları göndərilmişdi. Şahzadə Aleksandr da bu məqsədlə knyaz Zaza Sisiaşvili, Həsən və Molla Məmmədi müvafiq çağırışlı məktublarla qonşu əyalətlərə göndərmişdi[2].

Kaxetiya üsyanının başçıları Qazax əhalisinə də dəfələrlə məktubla müraciət etmişdilər. 1812-ci ilin fevralında Sığnağa hücumu zamanı oradakı Qaraağac qalasının üsyançıların əsas qüvvələri tərəfindən mühasirəyə alınması barədə imperatora məlumat verən Pauluççi özü də bu mövzuya toxunurdu. O, mühasirə zamanı üsyançıların Qazax ağaları və car-balakənlilərə yazdıqları yardım xahişli məktubların Qazax mouravı tərəfindən ona çatdırıldığını təsdiqləyirdi[3].

Markiz Pauluççinin 26 mart 1812-ci il tarixli raportunda da bu barədə qeyd olunanlar carlıların Kaxetiya üsyanının fəal iştirakçılarından olduğunu deməyə əsas verir. Markiz göstərir ki, Qaraağac qalası fevral ayının 11-dən etibarən üsyançılar tərəfindən mühasirədə saxlanılmışdı.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatdan irəli gələn əsas müddəalar ümumiləşdirilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. XVIII əsrin 60-80-ci illərində Azərbaycan-Gürcüstan münasibətləri tarixindən // "Tarix və onun problemləri" jurnalı, № 1, 2015, s. 44-50.
2. XVIII əsrin 90-cı illərində Qacarlar İranı və çar Rusiyasının Cənubi Qafqaz siyasətinə dair // Pedaqoji Universitet Xəbərləri jurnalı, 2015, №1, s. 156-160.

---

[1] GMDTA, f. 416, siy. 2, iş 16, v. 88.

[2] Маркова О.П. Восстание в Кахетии 1812 г. Москва, изд-тво Акад. Наук СССР, 1951, s. 180

[3] Всеподданнейщий рапорт маркиза Паулуччи, от 26-го марта 1812 года. АКАК, т.5, Тифлис, 1873, док. 97, s. 71-74.

3. XIX əsrin əvvəllərində Cavad xanın Şəmşəddil sultanlığı uğrunda mübarizəsi tarixindən // "Qafqaz tarixinin aktual məsələləri" mövzusunda beynəlxalq konfransın materialları, 15-16 oktyabr, 2015, s. 15-20
4. XVIII əsrin ikinci yarısında Azərbaycan-Gürcüstan münasibətlərində Car-Balakən camaatlığının yeri (1783-cü il Georgiyevsk traktatına qədər) // "Tarix və onun problemləri" jurnalı, № 2, 2015, s. 56-61
5. XVIII əsrin 80-cı illərində çar Rusiyasının Cənubi Qafqaz siyasətində erməni amili // "Ermənilərin soyqırımı siyasəti bəşəriyyətə qarşı cinayətdir" beynəlxalq elmi konfransın materialları. Sumqayıt 2015 (21-22 aprel), s. 125-127
6. Об участии азербайджанцев в Кахетинском восстании 1812 года // Тбилиси, журнал «Кавказ и Мир», №20, 2015, s. 41-46
7. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı ərəfəsində Cənubi Qafqazın siyasi durumuna dair // Pedaqoji Universitet Xəbərləri jurnalı, 2015, №2, s. 99-102

**I.Q. Karimli**

## Russia's policy in the South Caucasus and Azerbaijan-Georgia relations (the end of the 18th and the beginning of the 19th century)

### SUMMARY

In the thesis the general dynamics of the Azerbaijan-Georgian relations of the late 18th and early 19th centuries are explored in the context of Russia's geopolitical and military expansion in the Caucasus.

The thesis consists of introduction, three chapters, conclusion and list of used literature.

The introduction substantiates the relevance of the subject, provides an overview of the sources and analysis the historiography, defines the goals and objectives, the methodological basis for the study, indicates the scientific novelty, theoretical and practical significance of the topic.

In the first chapter titled "Political relations of the Kartli-Kakheti kingdom with the separate state formations of Azerbaijan – with Karabakh, Guba, Ganja, Sheki khanates, as well as Jar-Balakan jamaats in the 50-80s of the XVIII century" were thoroughly analyzed in detail dynamic changes that took place in the Azerbaijani-Georgian relations due to the rapidly changing military-political conjuncture. The dissertation reveals the significance of such circumstances in the mentioned relations as serious contradictions between the khanates; noted that because of political fragmentation, the Azerbaijani khanates often clashed what skillfully was used by Kartli-Kakheti king Irakly II.

In the second chapter various aspects of the Azerbaijani-Georgian relations are examined in detail in the context of the foreign policy factor, in particular, in the conditions of the rivalry of the Russian Empire, the Ottoman Empire and the State of Gajars that developed at the end of the century for the possession of the region. It is noted that taking advantage of deep contradictions between its main geopolitical rivals in the region and also maneuvering between the interests of local feudal formations, having seized a favorable moment, tsarism proceeded to direct military conquest of the Caucasus. The study emphasizes that in its expansionist undertakings, tsarism relied on the upper classes of Georgia, seeking the protection of Russia.

In the third chapter the every process of occupation of the South Caucasus, including Azerbaijan by Russia is subjected to analysis. It is noted that it was through the political turmoil in Georgia that Russia received the necessary excuse to implement its annexationist plans. We came to the conclusion that at the beginning of the nineteenth century tsarism first passed from the policy of patronage of the Georgian kingdom to the policy of conquering Georgia and then the whole of the South Caucasus. Such a turn completely dispelled the illusions of the Georgian ruling class, who dreamed of creating "Great Georgia" with the help of Russia at the expense of the Azerbaijani lands. In this chapter, for the first time in Azerbaijani historiography an anti-colonial insurrection was considered, which in 1812 engulfed eastern Georgia-Kakheti. The Azerbaijani population of Gazakh, Borchaly, Irevan khanate and Jar-Balakan jamaats also took an active part in it.

All results of the research were summarized in conclusion.

**И.Г.Каримли**

## Политика России на Южном Кавказе и Азербайджано-грузинские отношения (конец XVIII - начало XIX веков)

### РЕЗЮМЕ

В диссертации исследуется общая динамика Азербайджано-грузинских взаимоотношений конца XVIII – начала XIX вв. в контексте геополитической и военной экспансии России на Кавказе.

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность тематики, дается обзор источников и анализ историографии, определяются цели и задачи, методологическая основа исследования, указывается научная новизна, теоретическое и практическое значение темы.

В первой главе подвергнут тщательному разбору политические взаимоотношения Картли-Кахетинского царства с отдельными государственными образованиями Азербайджана – с Гарабагским, Губинским, Гянджинским, Шекинским ханствами, а также с Джаро-Белоканскими джамаатами в 50-80-х годах XVIII века. Были подробно проанализированы динамичные изменения, происходившие в азербайджано-грузинских взаимоотношениях и обусловленные быстро меняющейся военно-политической конъюнктурой. В диссертации раскрывается значение в означенных отношениях таких обстоятельств, как серьезные противоречия между ханствами; отмечено, что по причине политической раздробленности Азербайджанские ханства часто конфликтовали, чем умело пользовался Картли-Кахетинский царь Ираклий II.

Во второй главе подробно рассмотрены разные аспекты Азербайджано-грузинских взаимоотношений в контексте внешнеполитического фактора, в частности, в условиях развернувшегося в конце столетия соперничества Российской империи, Османской державы и Государства Гаджаров за обладание регионом. Отмечено, воспользовавшись глубокими противоречиями между своими основными геополитическими соперниками в регионе, а также лавируя между интересами местных феодальных образований, улучив

благоприятный момент, царизм приступил к непосредственному военному завоеванию Кавказа. В исследовании подчеркивается, что в своих экспансионистских начинаниях царизм опирался на высшие сословия Грузии, искавшие покровительства России.

В третьей главе подвергнут разбору сам процесс оккупации Южного Кавказа, в том числе Азербайджана Россией. Отмечено, что именно воспользовавшись политической неурядицей в Грузии, Россия получила необходимый предлог для осуществления своих аннексионистских планов. Мы пришли к выводу, что в начале XIX века царизм переходит от политики покровительства грузинского царства к политике завоевания сначала Грузии, а потом и всего Южного Кавказа. Подобный поворот полностью рассеял иллюзии грузинского правящего сословия, мечтавшего создать с помощью России за счет азербайджанских земель «Великую Грузию». В данной главе впервые в азербайджанской историографии рассмотрено антиколониальное восстание, охватившее в 1812 году Восточную Грузию – Кахетию. В нем также приняло активное участие азербайджанское население Казаха, Борчалы, Иреванского ханства и Джаро-Белоканских джамаатов.

В заключении подведен итог проведенных научных исследований.

Kağız formatı: 60/84 16/1
Sayı: 100 nüsxə.
AMEA TİKM

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А. БАКИХАНОВА**

***На правах рукописи***

**ИЛХАМ ГНЯЗ оглы КЕРИМЛИ**

# ПОЛИТИКА РОССИИ НА ЮЖНОМ КАВКАЗЕ И АЗЕРБАЙДЖАНО-ГРУЗИНСКИЕ ОТНОШЕНИЯ (конец XVIII - начало XIX веков)

**Специальность: 5503.02 – «Отечественная история»**

# А В Т О Р Е Ф Е Р А Т

диссертация на соискание ученой степени
доктора философии по истории

**БАКУ - 2017**